# Uşaqlara qayğı hər zaman diqqət mərkəzindədir



**Aprelin 30-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynovanın BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullah ilə görüşü olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatın görə, Azərbaycanda ana və uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə geniş məlumat verən komitə sədri bildirib ki, uşaqlara qayğı hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu sahəni əhatə edən mühüm dövlət proqramları, həyata keçirilən ardıcıl tədbirlər barədə danışan Hicran Hüseynova qeyd edib ki, bu gün ölkəmizdə uşaq və yeniyetmələrlə bağlı yürüdülən məqsədyönlü siyasət dövlətin əsas prioritetlərindən biri olaraq qalır.

Söhbət zamanı ölkəmizdə ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsindən, qadın və uşaqlar üçün əlverişli şəraitin yaradılmasından, onların müdafiəsinin hüquqi aspektlərindən söz açan komitə sədri vurğulayıb ki, Milli Məclis bu sahədə yeni normativ aktların layihələrinin hazırlanması, həmçinin mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq edir.

BMT-nin Uşaq Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullah ölkəmizdə ailə, qadın və uşaqların hüquqlarının qorunması sahəsində aparılan dövlət siyasətini müsbət dəyərləndirib, Azərbaycanda uşaq hüquqlarının müdafiəsi sahəsində əldə olunmuş əhəmiyyətli uğurları qeyd edib. Təmsil etdiyi qurumun ölkəmizdə həyata keçirdiyi bir sıra mühüm layihələr barədə məlumat verən qonaq bildirib ki, hazırda qurum keçmiş məcburi köçkünlərin öz yurdlarına geri qayıdışı zamanı onların təhlükəsiz şəraitdə yaşaması üçün əhali arasında minalarla bağlı geniş maarifləndirmə işi həyata keçirir.

Görüş zamanı qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olunub, birgə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.-1 may, № 88.- S.3.